# Vətən yolunda şəhid olanlar ölmürlər

***Indi 32 ildir Milli Qəhrəman Səfəralı Qurban oğlu Məmmədovun nəsibi əzəmətli, müqəddəs şəhidlik zirvəsindən boylanan səadətidir.***



1963-cü ildə Masallının Sərçuvar kəndində dünyaya göz açan elin mərd oğlu 29 yaşında Birinci Qarabağ müharibəsində Vətən, millət yolunda şüurlu surətdə canını fəda edib. Qəhrəman Vətən sevdalısı cismən dünyadan getsə də, mənən milyonların qəlbində yaşayır. Bu günlər Masallı camaatı tərəfindən Səfəralı Məmmədovun xatirəsi anıldı. Mərasim Milli Qəhrəmanın adını daşıyan Sərçuvar kənd tam orta məktəbində baş tutdu.

Tədbirdə Masallı RİHB aparatının, rayon polis şöbəsinin əməkdaşları, qəhrəmanın ailə üzvləri, hərbçi yoldaşları, kənd sakinləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Ziyarətçilər qəhrəman oğlunun əziz xatirəsinə ehtiram əlaməti olaraq büstü önünə gül dəstələri düzdülər. Sonra onun şərəfli, zaman- zaman gələn nəsillərə nümunə olacaq həyat yolundan böyük qürurla, iftixarla danışanlar çox oldu. Bildirildi ki, Səfəralı qısa ömrünü Vətəninə sərf etdi. O, canından artıq sevdiyi doğma Azərbaycanın bütövlüyü uğrunda misilsiz fədakarlıq göstərib. Adı xalqın qəhrəmanlıq simvoluna dönərək dillərdən düşmür.

Səfəralı Məmmədov Ağdam rayon Daxili İşlər Şöbəsində post-patrul batalyonunda tağım komandiri vəzifəsində xidmət edib. O, 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni quldurlardan xilas edən zaman şəhid olub, ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülüb. Masallı şəhərində küçələrdən biri, igid döyüşçünün təhsil aldığı məktəb onun adını daşıyır. Məktəbin həyətində büstü qoyulub, cəsur döyüşçüyə həsr olunmuş "Qəhrəman polis" adlı sənədli film çəkilib.

Anım tədbirində məktəblilərin ifasında Vətəni, Milli Qəhrəmanı, şəhidləri vəsf edən şerlər, nəğmələr səsləndi.

Bu sevgi və məhəbbətə, eləcə müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Milli Qəhrəmanın anası Şahdəstə xanım Məmmədova Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, xalqına, hər bir kəsə dərin razılığını söylədi.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***